

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 oktyabr 2025-ci il, cümə axşamı
№ 187 (7014)
Qiymәti 60 qəpik


## Hər gün qələbə sevinci

Bax səh. 3



İlham Əliyev
@azpresident

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

6:21 PM · Oct 16, 2020 · Twitter for iPhone



# Yeni dövrün LİDER nümunəsi!

## XXI əsrin yeni reallığında Azərbaycan fenomeni

Bax səh. 2

## İqtisadi inkişaf göstəriciləri ümidvericidir

Bax səh. 4

## Tarix qalibləri yadda saxlayır!

Bax səh. 4

## Sülhün, bərpanın və dirçəlişin rəmzi

Bax səh. 5



## Pakistan - Əfqanıstan sərhədində nə baş verir?

Bax səh. 7



## Sülh prosesi Cənubi Qafqaza yeni baxış qazandırır

Bax səh. 3



# Yeni dövrün LİDER nümunəsi!

## XXI əsrin yeni reallığında Azərbaycan fenomeni

### Ədalət, sülh və bərabər tərəfdaşlıq üzərində qurulan model

XXI əsrin ilk dörddən birini arxada qoyduğumuz bir zamanda dünya da yeni bir mərhələyə qədəm qoyur. Qlobal siyasi nizamın dəyişməsi, iqtisadi güc mərkəzlərinin həm forma, həm mahiyyət, həm də güc balansı fərqlərinin meydana çıxdığı, beynəlxalq münasibətlər sistemində ədalət anlayışının yenidən formalaşması dövrü yaşanır - son illər bütün qitələrdə müşahidə olunan geosiyasi dinamika və dəyişkənlik sübut edir ki, hərbi güc artıq təkbaşına aparıcı faktor kimi qabarıq xarakter daşımır. İndiki halda dünyanın qlobal oyunçuları iqtisadi, siyasi və mədəni töhfələri ilə yanaşı, həm də bəşəri dəyərlərə, ədalətə və beynəlxalq əməkdaşlığa verdikləri dəstək ilə ön plana çıxırlar. Bu baxımdan, Azərbaycan artıq uzun illərdir ki, yeni beynəlxalq düzənin fəal iştirakçısı və təşəbbüskarlarından birinə çevrilib.

## Qlobal siyasi proseslərə baxış: sabitlik və inkişaf...

Son illərdə Azərbaycanın qlobal arenada ard-arda qazandığı qələbələrə, nail olduğu beynəlxalq nüfuza və imicə nəzər saldıqda, mühüm ştrixlərlə rastlaşırıq. O baxımdan ki, qalib Azərbaycanın xarici siyasət fəlsəfəsi dünyanın qlobal əhəmiyyətə malik prinsiplərini özündə birləşdirir:

- Bərabərhüquqlu münasibətlər;
- Beynəlxalq hüquqa hörmət və onun təmin edilməsi;
- Ədalət və qarşılıqlı hörmət prinsipləri.

Məhz bu dəyərlərə əsaslanan siyasət nəticəsində Azərbaycan son 20 ildə həm regional, həm də beynəlxalq səviyyədə tanınan, hörmət edilən və nüfuz qazanan dövlət statusu əldə edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu diplomatiya Azərbaycanın beynəlxalq nüfuzunu sistemli şəkildə artırıb.

Azərbaycanın təşəbbüsləri artıq regional sabitliyin və qlobal əməkdaşlığın vacib dayağı kimi qəbul olunur. Bu, təkcə enerji və nəqliyyat, logistika və təminat siyasətində deyil, həm də qlobal humanitar təşəbbüslərdə, iqlim diplomatiyasında və beynəlxalq təhlükəsizlik məsələlərində özünü aydın göstərir. Azərbaycanın uğuru, əslində, yeni dünya nizamının mahiyyətini əks etdirir - yürüdülən siyasət gücə deyil, ədalətə, əməkdaşlığa, tərəfdaşlığa söykənən siyasətdir. Qlobal sistemdə sərt dəyişikliklərin müşahidə olunduğu bir dövrdə Azərbaycan həm prinsipial mövqeyi, həm də balanslı diplomatiyası ilə nümunəvi sabitlik modeli təqdim edir.







## Bakı yeni mərhələ açır: hamının maraqları naminə ədalətli əməkdaşlıq...

XXI əsrin qlobal münasibətlər sistemi özündə bir çox meyarları birləşdirir. Məsələn, iqtisadi münasibətlərində əsas meyar ədalət və qarşılıqlı faydalılıq, bərabərtərəfli əməkdaşlıq kimi prinsiplər ön plana çıxır. Azərbaycan isə məhz bu prinsipləri rəhbər tutaraq özünün müasir iqtisadi münasibətlər sistemini, modelini formalaşdırıb. Bakı indi tək enerji ixracatçısı deyil - həm də qlobal iqtisadi münasibətlərin ədalətli tənzimlənməsinə yönəlik təşəbbüslərin müəllifidir. Bunu sübut edən onlarla fakt mövcuddur - məsələn, COVID-19 pandemiyası dövründə Azərbaycan beynəlxalq həmrəyliyin və humanist dəyərlərin ən real nümunəsini göstərdi. Pandemiyanın ən ağır mərhələsində Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının onlayn zirvə görüşü keçirildi, dünya dövlətlərinə bərabərhüquqlu yardım çağırışı edildi. Azərbaycan həm vaksin paylanmasında ədalətsizliyə etiraz etdi, həm də aztəminatlı ölkələrə real maliyyə və tibbi yardım göstərdi.

Eyni yanaşma enerji təhlükəsizliyi sahəsində də özünü göstərdi. Avropanın enerji böhranı ilə üzləşdiyi dönəmdə Azərbaycan qaz və enerji ixracını artırmaqla, qitənin enerji balansının qorunmasında strateji rol oynadı. Bununla yanaşı, Azərbaycan özünü heç vaxt "geosiyasi vasitə" kimi təqdim etmədi - əksinə, qarşılıqlı fayda və şəffaf əməkdaşlıq modelini təklif etdi.

Bu gün Bakı Asiya ilə Avropanı birləşdirən mühüm logistik və iqtisadi mərkəzə çevrilib. Orta Dəhliz, Zəngəzur dəhlizi (TRİPP) və Bakı-Tbilisi-Qars xətti kimi layihələr təkcə regionun deyil, bütövlükdə Avrasiya qitəsinin iqtisadi inkişafına təkan verir. Azərbaycanın təşəbbüsləri artıq dünya iqtisadi xəritəsində "ədalətli əməkdaşlıq modelinin" simvoluna çevrilib.

Azərbaycanın məqsədi açıq və şəffafdır: hamının maraqları naminə ədalətli əməkdaşlıq prinsipi. Bu, həm regional, həm də qlobal iqtisadi münasibətlərin gələcək işıqlı fəlsəfəsini formalaşdıran ən düzgün strateji yoldur.

## Qlobal mövqe: sülh missiyası və liderlik nümunəsi

Eyni fikirləri qlobal dünyanın siyasi mənzərəsinə də şamil etmək olar - Bakı apardığı siyasi kursla qlobal təhlükəsizliyə töhfə verir, sülh və sabitliyin inkişafına dəstək göstərir, kataklizmlərin aradan qalxmasında aparıcı vasitəçi kimi çıxış edir. Beləliklə, Azərbaycanın beynəlxalq siyasətdə qazandığı mövqenin təsadüfi olmadığı bütün konturları ilə üzə çıxır. Bu, sistemli və strateji əsasları olan siyasətin nəticəsidir. Daha bir real misala nəzər salaq: bir neçə gün öncə Misirdə keçirilən Yaxın Şərq Sülh Konfransında Prezident İlham Əliyevin ilk sırada əyləşməsi və dövlət başçımıza ABŞ prezidenti tərəfindən birbaşa müraciət ünvanlanması, diplomatik protokoldan daha çox, Azərbaycanın beynəlxalq nüfuzunun rəsmi tanınması və təsdiqi idi. 30 ildən artıq bir dövrdən sonra Avrasiyanın mərkəzində yeni reallıqlar formalaşdıran Azərbaycan Prezidentinə beynəlxalq aləmdə xüsusi bir hörmət, yanaşma var - bu, həm də Azərbaycanın sülh təşəbbüslərinin qlobal miqyasda qəbul olunduğunun göstəricisidir. Çünki Azərbaycan özünün sülh strategiyasını yalnız Cənubi Qafqazla məhdudlaşdırmır - uzun illərdir ki, beynəlxalq səviyyədə sülh və ədalət ideyalarının təşviqinə çalışır. Qoşulmama Hərəkatının sədri kimi ölkəmiz 120-dən çox dövlətin maraqlarını müdafiə edən platformaya uğurla rəhbərlik edib və təşkilatıa nüfuz qazandırıb, yeni inkişaf mərhələsi imkanları açıb. Azərbaycanın vasitəçilik missiyası artıq dünya diplomatiyasında xüsusi nüfuzla səslənir. Bakı regionda sülhü qorumaqla yanaşı, həm də Qərb və Şərq, Şimal və Cənub arasında dialoqun təşəbbüskarıdır. İslamofobiyaya qarşı BMT səviyyəsində qəbul edilən qətnamə, Azərbaycanın təqdim etdiyi "Mədəniyyətlərarası dialoq" platforması və Bakı Humanitar forumları bu istiqamətdə çox böyük əhəmiyyət daşıyır.

Azərbaycanın beynəlxalq səviyyədə əldə etdiyi hörmətin bir səbəbi də onun praqmatik və prinsipial, ardıcıl və qətiyyətli, davamlı və qarşılıqlı hörmətə əsaslanan siyasətidir. Prezident İlham Əliyev hər zaman beynəlxalq hüququn üstünlüyünü, dövlətlərin suverenliyinə hörməti əsas prinsip kimi irəli sürüb. Bu siyasət nəticəsində Azərbaycan dünya liderlərinin etimadını və hörmətini qazanıb.

## Bakının öncüllüyü: beynəlxalq gündəmi formalaşdıran mərkəzlərdən birinə çevrilirik

Sirr deyil ki, son illər beynəlxalq tədbirlərin gündəliyində Azərbaycan mövzusu getdikcə daha çox yer tutur. Ötən il COP29-a ev sahibliyi etmək hüququnun Azərbaycana verilməsi bunun ən bariz nümunəsidir. Bu qərar, ölkəmizin qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir.

Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlər sadəcə protokol xarakterli deyil - onlar real nəticələrə, yeni ideyaların formalaşmasına gətirib çıxarır. Bakı Qlobal forumları, Enerji sammitləri, Nəqliyyat və Davamlı İnkişaf konfransları, həmçinin TÜRKPA, MDB, İƏT və TDT çərçivəsində, BMT müstəvisində keçirilən zirvə toplantıları Azərbaycanın qlobal diplomatiyada aktiv iştirakının bariz sübutudur. Prezident İlham Əliyevin Çin, ABŞ, Türkiyə, Böyük Britaniya kimi dövlətlərin liderləri ilə qurduğu şəffaf və qarşılıqlı etimada əsaslanan münasibətlər Azərbaycanın nüfuzunu daha da artırır. Azərbaycanın bu münasibətlərdə əsas üstünlüyü məhz davamlı siyasətidir - bu siyasət milli maraqlar üzərində qurulan əməkdaşlığa söykənir. Təsadüfi deyil ki, bu gün dünya mediasında Prezident İlham Əliyev yeni dövrün lider nümunəsi kimi ön plana çıxarılır. Azərbaycanın dövlət başçısının qətiyyətli qərarları, çevik diplomatik yanaşması beynəlxalq münasibətlər sistemində xüsusi hörmətə layiq görülür. Azərbaycanın qlobal tədbirlərdə, o cümlədən BMT, Avropa İttifaqı və İslam Əməkdaşlıq Təşkilatı kimi platformalarda fəallığı artıq ölkəmizin beynəlxalq gündəmi formalaşdıran mərkəzlərdən birinə çevrildiyini təsdiqləyir.

## Dünyanın aparıcı paytaxtları ilə eyni siyasi masada...

Beləliklə, Azərbaycan artıq yalnız regional sabitliyin dayağı deyil, həm də qlobal siyasətin mühüm tərkib hissəsinə çevrildiyini sübuta yetirib. Regional liderlikdən qlobal nüfuza keçid Azərbaycanın diplomatik fəallığı, iqtisadi sabitliyi və təhlükəsizlik siyasətindəki ardıcıllığı ilə birbaşa bağlıdır. Prezident İlham Əliyevin xarici siyasət kursu artıq təkcə Azərbaycanın milli maraqlarını deyil, həm də beynəlxalq ədalət və tarazlığın qorunmasını hədəfləyir. Bu gün Bakı dünya paytaxtları ilə eyni siyasi masada, ön sırada təmsil olunur. Azərbaycanın səsi beynəlxalq tribunalarda eşidilir, mövqeyi nəzərə alınır, çağırışları isə dəstək qazanır. Bu yeni mərhələdə qarşıda duran əsas məqsəd qazanılmış statusu qorumaqla yanaşı, onu daha da gücləndirməkdir. Bunun üçün iqtisadi dayanıqlığın, siyasi sabitliyin və sosial rifahın davamlılığı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan artıq sübut edib ki, milli maraqlarına sadiq qalmaqla, beynəlxalq əməkdaşlığın mərkəzinə çevrilmək mümkündür.

Nəticə etibarilə, Azərbaycanın regional liderlikdən qlobal statusa doğru irəliləyişi təkcə ölkəmiz üçün deyil, həm də bütün region və beynəlxalq sistem üçün nümunəvi modeldir - ədalət, əməkdaşlıq və bərabər tərəfdaşlıq üzərində qurulan model.

Azərbaycanın gələcək inkişaf perspektivləri də bu istiqamətdə aydın və məqsədyönlüdür. Yeni geosiyasi reallıqlar fonunda ölkə beynəlxalq münasibətlər sistemində sabitlik və əməkdaşlığın dayağı kimi mövqeyini daha da gücləndirməyi hədəfləyir. Bu isə yaxın gələcəkdə Azərbaycanı qlobal proseslərin aparıcı aktorlarından biri səviyyəsinə yüksəldəcək.

***Pərviz SADAYOĞLU***



# Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə təşəkkürünü bildirən Elina Valtonen, ilk növbədə, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Stubba çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Finlandiya Prezidentinin görüşləri, həmçinin Bakıda keçirilmiş COP29 tədbirində Finlandiyanın ən yüksək səviyyədə iştirakı məmnunluqla xatırlandı.

Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi.

Qonaq Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaratdı.

Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRIPP layihəsinin regional əməkdaşlıq baxımından önəmini toxundu, onun bütün bölgə üçün faydalı olacağını dedi.

Söhbət zamanı ölkəmizlə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan-Finlandiya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Sülh prosesi Cənubi Qafqaza yeni baxış qazandırır

## Böyük Britaniya silah embarqosunu tamamilə ləğv edir

Azərbaycanın təşəbbüsü və qətiyyəti ilə Cənubi Qafqazda formalaşan sülh prosesi regionun inkişafında yeni bir mərhələ açır. Artıq bölgəmiz qlobal dünya ilə münasibətlərdə daha fərqli bir aspektdən çıxış edəcək - Cənubi Qafqaz konfrantasiyalı bölgə kimi yox, sülh şəraitli, sabit və inkişafa doğru can atan region kimi dəyərləndiriləcək. Bu ilin sentyabrında başlanan və Ermənistan ilə Azərbaycanın avqustda birgə imzaladığı müvafiq müraciətə əsaslanan ATƏT-in Minsk qrupunun ləğvi prosesi regionda hər hansı bir münaqişənin və ya qarşıdurmanın olmadığını bir daha sübuta yetirir. Dünya dövlətlərinin məsələyə münasibəti də adekvatdır - bu, həm də bölgədə yaranan yeni reallıqların dünya ictimaiyyəti tərəfindən tam qəbul edilməsi deməkdir.

Məsələn, Böyük Britaniya Azərbaycan və Ermənistana qarşı silah embarqosunu tamamilə ləğv edir. Bu barədə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dautin Böyük Britaniya parlamentinin saytında dərc olunmuş yazılı açıqlamasında bildirib. Bəyanatda qeyd edilir ki, London Ermənistan və Azərbaycan arasında sülh prosesində irəliləyişi alqışlayır. Nazirin sözlərinə görə, bu, "sülh və sabitliyə doğru mühüm addımdır".

Dautin xatırladıb ki, avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə üçtərəfli sammit keçirilib. Zirvə görüşündən sonra sülh müqaviləsi paraflanıb və bəyannamə imzalanıb. Sənədə əsasən, Böyük Britaniya Azərbaycan və Ermənistanla münasibətlərini ticarət, təhlükəsizlik və müdafiə sahələrində strateji tərəfdaşlığa yüksəltmək qərarına gəlib.

"Biz Minsk qrupunun buraxılmasının tərəfdarıyıq. Əldə edilmiş irəliləyiş nəzərə alınmaqla, biz hesab edirik ki, 1992-ci ildə ATƏT-in silah embarqosu artıq aktual deyil. Böyük Britaniya Ermənistan və Azərbaycana silah embarqosunu tamamilə ləğv edir. Bu, təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafına kömək edəcək və hibrid təhdidlərə cavab olaraq bu ölkələrin suverenliyini və ərazi bütövlüyünü qoruyacaq. İxrac lisenziyaları ciddi meyarlar əsasında ayrı-ayrılıqda nəzərdən keçiriləcək".

### ATƏT-in çağırışı, BMT-nin qətnamələri...

Sözügedən embarqo ötən əsrin 90-cı illərinin əvvəlində Ermənistanın Azərbaycana qarşı başladığı işğalçı müharibədən qaynaqlanırdı. Belə ki, 1991-1992-ci illərdə SSRİ dağıldıqdan sonra Dağlıq Qarabağ və ətrafındakı ərazilər Ermənistan tərəfindən işğal olunmağa başladı. Qısa zamanda Azərbaycan və Ermənistan arasında hərbi əməliyyatlar gücləndi. Beynəlxalq aləm keçmiş SSRİ məkanındakı təhlükəsizliyi ciddi təhdid edən bu eskalasiyanı dayandırmaq məqsədilə 1992-ci ilin fevralında ATƏT-in (o zaman ATƏM adlanırdı) "müvəqqəti və könüllü" silah embarqosunu tətbiq etməyə çağırışı yayıldı - məqsəd döyüşən qüvvələrə silah və sursat göndərilməsinin qarşısını almaqla müharibənin daha da dərinləşməsinin önünə keçmək idi. Bu çağırış hüquqi olaraq könüllü xarakter daşıyırdı - yəni, ATƏT iştirakçıları silah satışını dayandırmağa çağırılırdı. Bu çağırış vahid məcburi BMT qərarı deyildi. Buna görə çağırış haqqında danışılanda "multilateral, könüllü" embarqo termini işlədilir.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası o zamankı Ermənistan-Azərbaycan münaqişəsi ilə məlum qətnamələri qəbul etdi və dövlətləri "hər hansı bir silah tədarükündən çəkinməyə" çağırdı. Bu qətnamələr də məcburi tədbirlər (Chapter VII-ya əsaslanan) formatında deyil - daha çox tərəflərə çağırış/pressing idi. Başqa sözlə, 1993-cü il qərarları da embarqonu sərt şəkildə məcbur edən sanksiya tipli qərar deyildi, amma beynəlxalq səviyyədə embarqonun leqal çərçivəsini gücləndirdi.

### Embarqoya tam riayət olunmadı...

ATƏT-in çağırışı və BMT qətnamələri əsasən "münaqişəni daha da dərinləşdirə biləcək" hər cür silah və sursatın çatdırılmasından çəkinməyi nəzərdə tuturdu - yəni zirehli texnika, top-mühərriklər, kiçik silahlar, sursat və s. konkret siyahı kimi hər ölkənin ixrac nəzarət qaydalarına uyğun şəkildə tənzimlənirdi. Könüllü olması səbəbindən embarqo anlamıyla tətbiq etmədilər. Bu da embarqonun effektivliyini məhdudlaşdırdı. Məsələ burasında idi ki, embarqonun icrasını yoxlayan vahid beynəlxalq səlahiyyət və ya müfəttiş qurum yaradılmamışdı: nəticədə, silah tədarüklərinə nəzarət imkanları mövcud deyildi.

Qeyd edək ki, keçmiş "münaqişə"nin militarizasiyasının məhdud-



vahid və universal icraya malik olmadı. Qərb ölkələrinin çoxu (bəzi hallarda rəsmi olaraq) embarqoya riayət etsə də, münaqişədə birbaşa və ya dolayı yolla silah axınları davam etdi. Məsələn, Fransa və başqa dövlətlər açıq şəkildə Ermənistanı silahlandırdılar - paralel olaraq, başqa dövlətlər də müxtəlif dövrlərdə tərəflərə silah və hərbi texnika tədarükü etdilər və ya embarqonu tam laşdırılması yönündə atılan bu addım rəsmi səviyyədə bəzi tədarükləri dayandırsa da, qeyri-rəsmi və üçüncü ölkə kanalları vasitəsilə silah axını davam etdiyindən hərbi əməliyyatlar və işğal prosesi tamamilə dayandırılmadı. Sadəcə olaraq, embarqo o zamankı beynəlxalq ictimaiyyətin münaqişə ilə bağlı narahatlığının göstəricisi idi və sonrakı BMT qətnamələrinin siyasi zəminini yaradırdı.

### Bakının qlobal təhlükəsizliyə yeni töhfəsi...

Artıq regionda siyasi-hərbi vəziyyət dəyişib - işğal prosesinə son verilib, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü təmin olunub. Avqustun 8-də Vaşinqtonda paraflanan sülh sazişi isə Cənubi Qafqazın stabil inkişafı üçün yeni mərhələ formalaşdırır. Qısa zamanda sülh sazişinin imzalanması bu sabitlik indeksini daha da gücləndirəcək. Başqa sözlə, sülhün imzalanması:

- Ermənistanın dünya dövlətləri ilə münasibətində daha fərqli bir məcra formalaşdıracaq;
- Dünyanın aparıcı dövlətlərinin bölgəyə münasibətində daha müsbət tonlar oturuşduracaq;
- Qərb-Şərq tranzit yolu üzərində ən effektiv logistik seqment kimi Cənubi Qafqazın yerini daha da möhkəmləndirəcək;
- Ən əsası, Cənubi Qafqazın stabil bölgə statusunu təsdiqləyəcək.

Beləliklə, Azərbaycanın sülh prosesi istiqamətindəki qətiyyətinin bir daha bölgənin ümumi inkişaf mənzərəsinə qazandırdığı müsbət ştrixlər vurğulanmalıdır. Bakının qlobal təhlükəsizliyin ən mühüm, hətta açar regionlarından sayılan Avrasiyanın mərkəzində sabitlik formalaşdırması göründüyü kimi, yeni tendensiyalara yol açır...

**P.İSMAYILOV**

# Hər gün qələbə sevinci

## 16 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Xırmancıq, Ağbulaq və Axullu kəndləri işğaldan azad edilib

Vətən müharibəsinin hər günündə Azərbaycan Ordusu zəfərlərə imza atıb, irəliləyərək yeni-yeni yaşayış məntəqələrini işğaldan azad edib. Tarixin bu günündə - 16 oktyabr 2020-ci ildə Xocavənd rayonunun daha üç kəndi azadlığına qovuşub. Bununla bağlı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev "Twitter" səhifəsində növbəti qələbə paylaşımı edib. "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!", - deyə paylaşımda bildirilir.



### Azərbaycan ərazi bütövlüyünə hərbi-siyasi yolla nail olub

Vətən müharibəsinin hər günündə Azərbaycan Ordusu zəfərlərə imza atıb, irəliləyərək yeni-yeni yaşayış məntəqələrini işğaldan azad edib. Bir gözümüzün ağladığı, şəhid xəbərlərinə acıdığımız həmin günlərdə dövlətimizin başçısının qələbə tvitləri hər birimiz üçün sevinc müjdəsi idi. İstəyirdik ki, belə müjdələr tez-tez və daha çox gəlsin. Gəlirdi də! Müharibə Azərbaycan ərazisində gedirdi. Torpaqlarımız 30 il ərzində düşmən tapdağı altında qalmışdı. Qurulu yurd yerlərimiz erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmış, tarixi abidələrimiz məhv edilmiş, sərvətlərimiz talanmışdı. Müharibələr ölüm-itim, qan-qada, kədər, niskil deməkdir. Axı kim istəyər ki, əziz adamlarının itkisinin acısını yaşasın? Ancaq 2020-ci il sentyabrın 27-də sübh tezdən başlayan müharibə başqa anlam kəsb edirdi. Bu, bizim üçün ədalətli müharibə idi. Üç onillik ərzində aparılan danışıqlar nəticə verməmişdi. Məlum olmuşdu ki, Ermənistan bir qarış torpağımızı da sülh yolu ilə geri qaytarmaq istəmir, əksinə, yeni ərazilər uğrunda yeni müharibəyə başlamaq niyyətindədir. Buna görə də Azərbaycan cəmiyyəti, xüsusilə də gənclərimiz İkinci Qarabağ müharibəsinin başlamasını qaçılmaz bir zərurət kimi qəbul etdilər. Ölkədə bir çoşqu yaşanırdı. Hər kəs Orduya, ön cəbhəyə hansısa bir dəstək göstərməyi özünə mənəvi borc sanırdı. Ön cəbhədə isə igid əsgər və zabitlərimiz "Arxamızda Vətən torpağıdır!" deyib sonsuz mərdliklə döyüşlərə atılır, düşmənə qan uddururdular. Ermənistan mətbuatında yayılan məlumatlara görə, İkinci Qarabağ müharibəsində düşmən ordusunda 11 mindən çox fərari qeydə alınıb. Müharibədə "erməni xalqı döyüşkən xalqdır" mifi tamam dağıldı. Ermənistan silahlı qüvvələrinin təmsilçiləri döyüşlər zamanı postlarını, silahlarını qoyub qaçırdılar. Azərbaycan Ordusunda isə bir nəfər də olsun fərarilik etməyib ki, bu da gənclərimizin vətənpərvərliyinin və igidliyinin göstəricisidir.

Düşməni məğlub etmək üçün uzun zaman kəsiyi lazım gəlmədi. Cəmi 44 gün ərzində Ermənistan silahlı qüvvələri kapitulyasiyaya məruz qaldılar. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. 44 gün ərzində həyata keçirilən sürətli döyüş əməliyyatları ilə Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olunub. Bundan sonrakı mərhələdə isə üçtərəfli bəyanata uyğun olaraq Ermənistan Ağdamı, Kəlbəcəri və Laçını bir güllə atılmadan respublikamıza təhvil verdi. Beləliklə, ərazi bütövlüyümüz hərbi-siyasi yolla təmin olundu.

### Xocavəndin işğaldan azad edilməsi

Xocavəndin rayon mərkəzi 2 oktyabr 1992-ci ildə Ermənistanın nəzarətinə keçib. 10 noyabr 2020-ci ilə qədər isə rayonunun Hadrut qəsəbəsi və 34 kəndi işğaldan azad edilib. Azərbaycan Ordusunun 19-20 sentyabr tarixində keçirdiyi 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı Qələbə sayəsində Xocavənd də bütünlüklə separatçılardan təmizlənib və burada Azərbaycanın suverenliyi təmin olunub.

Xocavənd rayonunun Hadrut qəsəbəsi uğrunda gedən döyüşlər Vətən müharibəsinin ən parlaq səhifələrindən birini təşkil edir. Hadrutun coğrafi yerləşməsinin strateji önəmini anlayan ermənilər qəsəbənin müdafiəsini möhkəm təşkil etmişdilər. Bura çoxlu texnika və canlı qüvvə cəm olunmuşdu. Ətraf yüksəkliklərin ermənilərin əlində olması, işğal illərində yaradılan istehkamlar onlara üstünlüklər qazandırırdı.

Lakin nə qədər çətin olsa da, qəsəbə götürülməli idi. Oktyabrın 7-də düşmən Azərbaycan Silahlı Qüvvələrinin hücumunu fərqli istiqamətdən gözləyirdi. Ordumuz manevr işlədərək hücum istiqamətini Hadruta tərəf dəyişdi. Əvvəlcə ağır artilleriya atəşləri ilə qarşı tərəfin qüvvələrinə intensiv zərbələr endirildi və bunun ardınca xüsusi təyinatlı qüvvələrimiz qəsəbəyə sızmağa nail oldular. Digər qruplar isə Hadruta cənub istiqamətindən gələn yolları (Cəbrayıl və Xocavənd istiqamətindən) nəzarətə götürmüşdü. Vətən müharibəsinin 13-cü günü, oktyabrın 9-da xalq Prezident İlham Əliyevdən Hadrutun işğaldan azad olunması ilə bağlı növbəti müjdə xəbəri aldı. Bununla da Ordumuzun Şuşaya yolu açılmış oldu.

**Mübariz FEYİZLİ**

# İqtisadi inkişaf göstəriciləri ümidvericidir

## 9 ayda ÜDM-in həcmi 95 milyard manatı ötüb

2025-ci ilin yanvar-sentyabr aylarında ölkəmizdə 95 milyard 229,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,9 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 2,9 faiz artıb. ÜDM istehsalının 34,2 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,6 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 20,7 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 9300,3 manata bərabər olub.

### Qeyri-neft sənayesində artan istehsal

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, 95 milyard manatlıq əlavə dəyərin təxminən 68 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 70 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi 47 milyard manatı üstələyib. Qeyri-neft sənayesində artım daha çox olub və dinamika 4,8 faiz təşkil edib. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin yüksəlməsində sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye sektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin “Araz “Araz Vadisi İqtisadi Zonası”nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

### Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb

2025-ci ilin yanvar-sentyabr aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7 faizdən çox artıb. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı və maaşlarında da dinamika qeydə alınıb. Belə ki, muzdlu işçilərin sayı 1 milyon 764,9 min nəfər olub ki, onlardan 855,3 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 909,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Muzdla işləyənlərin 19 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 18 faizi təhsil, 13,9 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olanlardır. İqtisadiyyatda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artaraq 1093,8 manat təşkil edib. Bu dövrdə əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,6 faiz artaraq 66 milyard 267,3 milyon manat və ya hər nəfərə orta hesabla 6471,8 manat olub. Eləcə də əhalinin milli valyutada qoyulmuş əmanətlərinin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12 faiz, xarici valyutada olan əmanətlərin məbləği isə 3,1 faiz artıb.







### Büdcədə qeyri-neft yığımlarının həcmi 9 milyard manatı ötüb

2025-ci ilin yanvar-sentyabr aylarında fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 1 milyon 124 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Dövlət büdcəsinin gəlirləri 29 milyard 142,4 milyon manat təşkil edib ki, bu da proqnozu 675,2 milyon manat və ya 2,4 faiz üstələyib. Büdcə gəlirlərində Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 12 milyard 455,8 milyon manat təşkil edərək proqnozdan 614,2 milyon manat və ya 5,2 faiz çox olub. Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 34,5 milyon manat, Dövlət Neft Fondundan transfert 10,8 milyard manat, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar isə 4 milyard 748 milyon manat təşkil edib.

Bu dövrdə büdcə gəlirlərində əsas fiskal sütun kimi qeyri-neft mənbələri əsaslı resurs bazası olub. Qeyri-neft-qaz sektorunda daxilolmalar 9 milyard 173,2 milyon manat olub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 755,7 milyon manat və ya 9 faiz artıb. Ödənilən vergilərin 73,6 faizi qeyri-neft-qaz sektorunun, 26,4 faizi isə neft-qaz sektorunun payına düşüb.

### Sosial sığorta yığımları 12 faiz çoxalıb

2025-ci ilin yanvar-sentyabr aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun “ağarması” prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 4 milyard 661,4 milyon manat təşkil edib. Bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz və ya 500,1 milyon manatdan çox artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artaraq 3 milyard 113,2 milyon manat olub.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz artıb və 164,9 milyon manat təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 12,2 faiz artaraq 126,1 milyon manat olub.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrünə nisbətən 10,3 faiz artıb və 814,3 milyon manatdan çox təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,9 faiz artaraq 576,8 milyon manat olub.

### 11,4 milyard manat investisiya qoyuluşu

Ötən 9 ayda ölkədə sərmayə axıcılığı da dayanıqlı xarakter daşıyıb, əsas kapitala 13,1 milyard manata yaxın vəsait qoyulub. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 11,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 7 faiz yüksəlib. İnvestisiyalarının 6,7 milyard manatı və ya 51 faizi məhsul istehsalı sahələrinə, 2,1 milyard manatı və ya 16,1 faizi xidmət sahələrinə, digər sərmayələr isə məhsul istehsalı, xidmət və digər bölmələrə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 10 milyard manatı və ya 77,1 faizi daxili sərmayələr təşkil edib. Xarici investisiyaların həcmi 3,1 milyard manatı ötüb. Ümumilikdə, 9 ay ərzində istifadə edilmiş kapital resusrslarının 10,3 milyard manatı və ya 78,8 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

### 173 ölkə ilə ticarət əməliyyatları aparılıb

2025-ci ilin yanvar-avqust aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 173 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 112 ölkəyə məhsul ixrac olunub, 167 ölkədən idxal edilib. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsi 31 milyard 690,6 milyon dollar təşkil edib. Ticarət dövriyyəsinin 16 milyard 637,9 milyon dollarını və ya 52,5 faizini ölkədən ixrac olunmuş məhsulların, 15 milyard 52,7 milyon dollarını (47,5 faizini) isə idxal məhsullarının dəyəri təşkil edib. Nəticədə 1 milyard 585,2 milyon dollar məbləğində müsbət saldo yaranıb. 2024-cü ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 4,9 faiz artıb. Bu dövrdə qeyri-neft məhsullarının ixracı 2 milyard 399,5 milyon dollar təşkil etməklə faktiki qiymətlərlə 10,3 faiz yüksəlib.

Azərbaycanın xarici ticarət dövriyyəsinin 25,9 faizi İtaliya, 12 faizi Türkiyə, 10,4 faizi Rusiya, 9,2 faizi Çin, 3,2 faizi Almaniya, 2,9 faizi Birləşmiş Krallıq, 2,5 faizi ABŞ, 2,2 faizi Çexiya, qalan hissəsi digər dövlətlərin payına düşüb. İxracın qeyri-neft bölməsi üzrə dəyərdə Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan və ABŞ əsas yer tutur.

### Qeyri-neft sektorunun ÜDM-də payı 80 faizə yaxınlaşır

Cari ilin 9 aylıq makroiqtisadi göstəriciləri onu təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq. Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalında 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcəyi öz əksini tapıb. Orta müddətdə ÜDM-in strukturunda qeyri-neft sktorunun artımının 5 faiz olacağı proqnozlaşdırılır. Beynəlxalq maliyyə institutlarının açıqladığı hesabatlarda və yenilənmiş proqnoz ssenarilərində Azərbaycanda iqtisadi artımın ümidverici olmasına dair göstəricilər yer alıb. Beynəlxalq Valyuta Fondunun (BVF) dərc etdiyi “Regional iqtisadiyyatın inkişaf perspektivləri” adlı yeni hesabatında 2025-ci ildə ölkəmizdə ÜDM-in 4,5-5 faiz artacağı əksini tapıb. Eləcə də Dünya Bankı, Asiya İnkişaf Bankının hesabatlarında 2025-ci ildə iqtisadi artımla bağlı müsbət proqnozlarında qeyri-neft resurslarının yüksək artımları müqabilində ümumi daxili məhsulun 5 faiz təşkil edəcəyi fərz olunur.

***ELBRUS CƏFƏRLİ***

# Tarix qalibləri yadda saxlayır!

2020-ci ilin payızında Azərbaycan xalqı tarixi bir mübarizənin şahidi oldu. 27 sentyabrda başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi yalnız torpaqlarımızın azadlığı ilə nəticələnmədi, bu, həm də milli birliyin, xalq iradəsinin, haqqın və ədalətin parlaq təntənəsi idi. Azərbaycan tarix boyu öz suverenliyi uğrunda apardığı savaşda qələbə qazandı. Bu qələbə yalnız silah gücü ilə yox, xalqın ruhu, şəhidlərin qanı və Prezident İlham Əliyevin siyasi iradəsi ilə qazanıldı.

**Əsrlərlə danışılacaq 44 günlük mübarizə...**

### 30 illik ədalətsizliyə son

Ermənistanın 1990-cı illərin əvvəlində işğal etdiyi Qarabağ və ətraf rayonlar 30 il boyunca beynəlxalq hüququn, BMT qətnamələrinin pozulması fonunda tapdalanmışdı. Lakin 2020-ci ildə bu ədalətsizliyə son qoyuldu. Azərbaycan Ordusu mərdliklə, planlı şəkildə bir-bir torpaqları azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, və nəhayət, Qarabağın tacı olan Şuşa - hər biri qəhrəman əsgərlərimizin qanı, canı bahasına geri alındı.

Şuşanın azad edilməsi təkcə strateji yox, həm də mənəvi zirvə idi. 8 noyabr 2020-ci il tarixi artıq hər bir azərbaycanlının yaddaşında bir zəfər simvoludur.

### İkili standartlara qarşı haqqın səsi

Azərbaycan 44 gün ərzində həm hərbi, həm siyasi, həm də informasiya cəbhəsində misilsiz uğurlar qazandı. Prezident İlham Əliyevin apardığı diplomatik mübarizə nəticəsində dünya ictimaiyyəti ilk dəfə reallıqları açıq şəkildə görməyə başladı. Artıq torpaqları işğal olunmuş ölkə yox, qalib dövlətik. Bu statusu bizə heç kim bağışlamadı, biz onu haqqımızla, qurbanlarımızla qazandıq.

Ölkə başçısı müharibə zamanı dünyanın aparıcı media orqanlarına verdiyi müsahibələrdə bu cinayətləri birbaşa faktlarla ifşa etdi. Xarici jurnalistlər Gəncəyə, Bərdəyə, Tərtərə gətirildi. Onlar hadisə yerindən canlı görüntülərlə dünyaya reallıqları çatdırdılar. Bu, informasiya müharibəsinin mühüm bir cəbhəsi idi və Azərbaycan bu müharibədə də qalib gəldi.

Ancaq təəssüf ki, beynəlxalq ictimaiyyətin bəzi dairələri bu cinayətlərə ya laqeyd yanaşdı, ya da bərabərlik prinsipi adı altında həm qurbanı, həm cinayətkarı eyni tərəzidə tutmağa çalışdılar. Amma biz susa bilməzdik. Hər bir şəhidimizin, mülki vətəndaşımızın qanı haqq səsimizə çevrildi. İkili standartlara qarşı tək dayandıq, amma susmadıq. Azərbaycan öz səsini dünyaya çatdırmağı bacardı.

### Ermənistanın müharibə cinayətləri

Müharibə özlüyündə fəlakətdir. Amma haqq savaşında belə bir düşmənin necə qeyri-insani üsullara əl atdığını dünya gördü. Ermənistan ordusu cəbhə bölgəsindən uzaqda yerləşən, mülki əhalinin yaşadığı şəhərləri - Gəncə, Bərdə, Tərtər kimi bölgələri ballistik raketlərlə atəşə tutdu. Bu hücumlar nəticəsində onlarla günahsız uşaq, qadın, qoca həyatını itirdi. Tərtər praktiki olaraq hər gün atəş altında idi. Bərdəyə raket zərbəsi isə xüsusi qəddarlıq nümunəsi idi, o zaman klaster bombalardan istifadə edilmişdi. Bu, beynəlxalq hüquqa zidd, birmənalı şəkildə hərbi cinayətdir.

Ermənistan həm də işğal dövründə törətdiyi vandallıqla mədəni irsimizə qarşı vəhşiliklə özünü ifşa etdi. Azad edilən torpaqlarda dağıdılmış məscidlər, talan edilmiş muzeylər, yerlə-yeksan edilmiş kəndlər aşkarlandı. Bu, sadəcə müharibə nəticəsi deyildi, planlı şəkildə həyata keçirilmiş soyqırımı idi.

### Həqiqəti susdurmaq olmaz...

Bu gün qarşımızda dayanan məsələ təkcə Qarabağın yenidən qurulması deyil, eyni zamanda ədalətin bərpasıdır. Ermənistanın törətdiyi müharibə cinayətləri unudulmamalı, unudulmasına imkan verilməməlidir. Bu, yalnız hüquqi məsələ deyil, həm də əxlaqi məsələdir. Azərbaycan bu həqiqətləri təkcə öz müdafiəsi üçün deyil, həm də dünya ədalət sistemi adına söyləyir.

Ermənistanın müharibə cinayətləri təkcə 44 günlə məhdudlaşmır, bu, illərlə davam edən işğal idi. Azərbaycan həmin cinayətləri sənədləşdirməklə, ifşa etməklə və beynəlxalq tribunallara daşımaqla həm öz haqqını müdafiə edir, həm də tarix qarşısında borcunu yerinə yetirir. Çünki həqiqəti susdurmaq olmaz...

***Yeganə***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər” istiqaməti üzrə hazırlanmışdır

# Sülhün, bərpanın və dirçəlişin rəmzi

## Xankəndidə keçirilən 3-cü Milli Şəhərsalma Forumu azad ərazilərdə müasir şəhər quruculuğunu daha da sürətləndirəcək

Oktyabrın 15-də Xankəndi şəhərində 3-cü Milli Şəhərsalma Forumu işə başlayıb. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı ("UN-Habitat") ilə tərəfdaşlığı çərçivəsində "İqlimə-davamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusunda keçirilən tədbirdə 60-dan çox ölkədən 400-dək dövlət və özəl qurumların nümayəndələri, beynəlxalq təşkilatların, akademik institutların və vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak edir.

Forumda münaqişə və təbii fəlakətlərdən sonrakı dayanıqlı bərpa prosesləri, mənzil təminatı və layiqli yaşayış məskənləri, dayanıqlı və sağlam şəhərlər, ekoloji və enerji üzrə effektiv təcrübələr, rəqəmsallaşma və innovativ yanaşmalar, Davamlı İnkişaf Məqsədləri və Yeni Şəhər Gündəliyi, regional və beynəlxalq tərəfdaşlıqların inkişafı kimi mövzularda müzakirələr aparılacaq.

Forum çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, tətbiq olunan müasir şəhərsalma standartları və innovativ texnologiyalar, Azərbaycanın postmünaqişə dövründə əldə etdiyi nailiyyətlər, həmçinin müxtəlif ölkələrin qabaqcıl təcrübələrinə dair təqdimatlar ediləcək.

### Layiqli məskunlaşmaya töhfə verən uğurlu platforma

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır.

Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciətdə də qeyd edildiyi kimi, üçüncü dəfə təşkil olunan və artıq ənənə halını almış bu tədbir şəhərsalma sahəsində milli, regional və beynəlxalq tərəfdaşları bir araya gətirərək təcrübə mübadiləsi aparmaq, yeni təşəbbüslər formalaşdırmaq və əməkdaşlığı gücləndirmək üçün mühüm platforma rolunu oynayır. BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində keçirilən bu tədbirlər Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür. Eyni zamanda, ölkəmizə olan etimadın və dostluğun, həm də şəhərsalma istiqamətində ortaq məqsədlər naminə həmrəyliyimizin göstəricisidir.

Dövlət başçısının vurğuladığı kimi Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirir. Qarabağ və Şərqi Zəngəzurun ümumi planlaşdırılması 13,6 min kvadratkilometr ərazini əhatə etməklə 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşmasını nəzərdə tutur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb.

Regionda dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Son dörd il ərzində 3 yeni beynəlxalq hava limanı, avtomobil və magistral yolları, yeni dəmir yolu infrastrukturu inşa olunub, həmçinin yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam etdirilir. Bu baxımdan Xankəndi şəhərində keçirilən forum sülhün, bərpanın və dirçəlişin rəmzi kimi müasir, ağıllı və innovativ şəhər konsepsiyasına uyğun inkişafını daha da sürətləndirəcək.




### "Yaşıl tikinti"yə keçid üçün geniş fürsətlər

3-cü Milli Şəhərsalma Forumu müasir çağırışlar dövründə UN-HABITAT-ın əsas tövsiyə və kriteriyalarından biri olan ekoloji və təmiz tikinti normativlərinin tətbiqinə də geniş imkanlar yaradır. Məlum olduğu kimi, "yaşıl tikini"yə keçid qlobal iqlim alyansının fəal üzvlərindən biri kimi Azərbaycan üçün də gündəlikdə duran əsas məsələlərdən biridir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet istiqamət "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyən olunub. Eləcə də işğaldan azad edilmiş ərazilərin bərpası prosesində enerji infrastrukturunun yenidən qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi önəm verilir. "Yaşıl enerji" zonası elan edilmiş və 10 min meqavat yaşıl enerji üzrə texniki potensiala malik Qarabağ və Şərqi Zəngəzurda günəş və külək enerjisi layihələri sürətlə həyata keçirilir. Burada "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiyalar"ın tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Həmin tədbirlərdən biri inşaat sənayesi sektorunun ətraf mühitə zərərlərinin azaldılmasıdır. Bu baxımdan UN-HABITAT-la əməkdaşlıq Azərbaycanın "yaşıl tikinti" hədəflərinə çatmaqda mühüm fürsət sayıla bilər.

### UN-HABITAT-ın azad ərazilərdə "ağıllı şəhər" quruculuğuna dəstəyi

UN-HABITAT işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində də Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Təsadüfi deyildir ki, işğaldan azad edilmiş ərazilərdə müasir şəhər quruculuğu və bərpa işləri BMT-nin "Dayanıqlı inkişaf məqsədləri" təşəbbüsünün prinsipləri əsasında həyata keçirilir. Xüsusilə də Azərbaycan ilə UN-HABITAT arasında səmərəli əməkdaşlıq nümunəvi platformaya çevrilməkdədir və ölkəmizə inam və etimad daha da artır. Bu baxımdan təşkilat ən mötəbər tədbirlərini ölkəmizdə təşkil etməyə üstünlük verir. Bunun təzahürlərindən biri kimi 2026-cı ilin mayında BMT-nin ən yüksək səviyyəli tədbirlərindən biri olan 13-cü Ümumdünya Şəhərsalma Forumu Azərbaycana həvalə edilib. Bu isə Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafına və ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühüm töhfə verəcək.

Beləliklə, Xankəndi şəhərində keçirilən 3-cü Milli Şəhərsalma Forumunda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, tətbiq olunan müasir şəhərsalma standartları və innovativ texnologiyalar, Azərbaycanın postmünaqişə dövründə əldə etdiyi nailiyyətlər, həmçinin müxtəlif ölkələrin qabaqcıl təcrübələrinə dair təqdimatlar ediləcək. Eyni zamanda, şəhərsalma üzrə tədqiqatlar aparan nüfuzlu akademik heyətin iştirakı ilə təşkil olunan müzakirələr bu sahədə bilik mübadiləsini gücləndirəcək, elmə əsaslanan dayanıqlı qərarların qəbuluna təkan verəcək.

Xankəndi Forumu məskunlaşma və şəhərlərin davamlı inkişafında yeni meyar və prinsipləri tətbiq etmək, eyni zamanda dünya ölkələri ilə bu sahədə fəal əməkdaşlığı əlaqələndirmək, qlobal sülhə, təhlükəsizliyə mühüm töhfə vermək baxımından uğurlu platforma rolunu oynayacaq.

**ELBRUS CƏFƏRLİ**



# Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələri inkişaf edir

## Dekabrda iki ölkə arasında siyasi məsləhətləşmələr aparılacaq

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında əlaqələr qarşılıqlı hörmət və sıx dostluq münasibətləri əsasında inkişaf etməkdədir. İki ölkə arasında münasibətlər güclü siyasi zəmin üzərində davam edir və qarşılıqlı inam və etimadın, iradənin olması əlaqələri bütün sahələrdə irəliyə aparmaqdadır. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapılar açmaqdadır.

### Səfir: Siyasi dialoq hər il keçirilir

Yeri gəlmişkən, Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri İssam ben Saleh əl-Cuteyli mediaya açıqlamasında bildirib ki, bu ilin dekabrında Bakıda Azərbaycan və Səudiyyə Ərəbistanı Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçiriləcək. "Siyasi məsləhətləşmələr hər il keçirilir. Sonuncu dəfə məsləhətləşmələr Ər-Riyadda (2024-cü ilin dekabrında - red.) keçirilib, növbəti görüşün isə bu ilin dekabrında Bakıda baş tutacağı gözlənilir", - deyə diplomat söyləyib. Səfir, nazir və daha yüksək səviyyələrdə mütəmadi olaraq qarşılıqlı səfərlərin təşkilini məmnunluqla qeyd edib: "İki ölkə arasında qarşılıqlı səfərlər məsələsində çox sıx koordinasiya var ki, bu da iki qardaş dövlətin əlaqələrinin möhkəmliyinin əyani sübutudur".

O, həmçinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbəri Orxan Məmmədovun həmsədri olduğu Azərbaycan - Səudiyyə Ərəbistanı Birgə Biznes Şurasının işini yüksək qiymətləndirib: "Biznes Şurasının görüşləri hər il keçirilir, sonuncu görüş Azərbaycanda baş tutub. Səudiyyə Ərəbistanı geniş nümayəndə heyəti göndərib ki, bu da məni şəxsən sevindirir. Əsas məqsəd ticarət sahəsində əməkdaşlığı möhkəmləndirməkdir".



### Mülki müdafiə sahəsində memorandum imzalanacaq

Bundan əlavə, Azərbaycan və Səudiyyə Ərəbistanı mülki müdafiə sahəsində yeni memorandum imzalamağa hazırlaşır. Səfirin sözlərinə görə, sənəd Azərbaycanın Fövqəladə Hallar Nazirliyi ilə Səudiyyə Ərəbistanının Daxili İşlər Nazirliyi arasında imzalanacaq: "Biz artıq memorandumun yekun variantını əldə etmişik". Diplomat onu da xatırladıb ki, ölkələr artıq müxtəlif sahələrdə bir neçə anlaşma memorandumu imzalayıb və yeni razılaşmalar üçün hazırlıqları davam etdirir. Səfir bir sıra sahələrdə, o cümlədən hərbi, təhlükəsizlik, təhsil, ticarət, investisiya və mədəniyyət sahələrində sıx əməkdaşlıq və koordinasiyanın olduğunu xüsusilə vurğulayıb.

Təbii ki, iki ölkə arasında genişmiqyaslı əlaqələrin qurulması təsadüfi deyil. Azərbaycan xarici siyasətində Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlər xüsusi yer tutur. Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığını qarşılıqlı hörmət və özünəməxsus qardaşlıq münasibətləri birləşdirir. Hər iki ölkəni birləşdirən ümumi İslam mirası və maraqlarımıza xidmət edən hərtərəfli əməkdaşlıq və onlar arasında tam bir koordinasiyanın olması önəmlidir. Azərbaycan və Səudiyyə Ərəbistanı arasında formalaşmış dostluq və strateji tərəfdaşlıq münasibətləri uzun illərin səmərəli əməkdaşlığına əsaslanır. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də dini-mədəni təməllər üzərində qurulub.

### Səudiyyə Ərəbistanı hər zaman beynəlxalq müstəvidə ölkəmizi dəstəkləyib

Liderlərin siyasi iradəsi əsasında ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində çox səmərəli şəkildə əməkdaşlıq edirlər. Səudiyyə Ərəbistanının hər zaman beynəlxalq təşkilatlar, xüsusilə BMT və İƏT çərçivəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstək və ədalətli mövqeyi rəsmi Bakı tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı illərində Səudiyyə Ərəbistanı ölkəmizə davamlı olaraq siyasi dəstək göstərib. Səudiyyə Ərəbistanı nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdı və bu, Azərbaycan xalqına, dövlətinə göstərilmiş böyük dəstək idi.

2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Bu, yalnız infrastruktur deyil, yeni iqtisadi model, yaşıl enerji və innovasiya əsaslı yanaşmaların tətbiqi ilə müşayiət olunur. Bu kontekstdə Səudiyyə Ərəbistanı şirkətlərinin, xüsusilə də ACWA Power şirkətinin Azərbaycanın yaşıl enerji sektorundakı fəaliyyəti yüksək qiymətləndirilir. O cümlədən, sözügedən şirkət tərəfindən həyata keçirilən "Xızı-Abşeron" külək elektrik stansiyası layihəsi Azərbaycan tarixində ilk böyükmiqyaslı xarici investisiya ilə həyata keçirilən bərpa olunan enerji layihəsi kimi olduqca dəyərlidir. Bu stansiya 240 MVt gücə malikdir, ildə 300 minə yaxın ev təsərrüfatını təmin edəcək, 400 min ton karbon emissiyasını azaldacaq və 220 milyon kubmetr təbii qazın istifadəsinin qarşısını alacaq. Bu, enerji təhlükəsizliyi ilə yanaşı, ətraf mühitin qorunmasına da ciddi töhfə verir.

Eyni zamanda, ötən ilin noyabrında ölkəmizdə keçirilmiş COP29 çərçivəsində imzalanan sənədlər sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi arasında Enerji Əməkdaşlığı üzrə Yol Xəritəsi" və "Səudiyyə Elektrik Şirkəti (SEC) ilə "Azərenerji" ASC arasında elektrik enerjisi sahəsində bilik və təcrübə mübadiləsi üzrə Anlaşma Memorandumu" da vurğulanmalıdır.

Bütün bunların fonunda bu ilin dekabr ayında siyasi məsləhətləşmələrin aparılması və mülki müdafiə sahəsində yeni memorandumun imzalanmasının nəzərdə tutulması ölkələrimiz arasında sıx dostluq münasibətlərinin və genişlənən əməkdaşlığın göstəricisidir.

***Nardar BAYRAMLI***

# Keyfiyyətli xidmət və təhlükəsizlik məqsədilə...

## Taksi xidmətində icazə və kvota sisteminin tətbiqi taksi parkının müasirləşməsinə səbəb olacaq

Nazirlər Kabineti (NK) avtomobil nəqliyyatı xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması, habelə ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalarda nəqliyyat növləri üzrə sərnişin axınlarının paylanmasının optimallaşdırılması məqsədilə yeni qərar imzalayıb. Qərara əsasən, Bakı şəhərinin inzibati ərazi vahidi üzrə taksi minik avtomobilləri ilə sərnişin daşımaları üçün verilən icazələrin əlavələrinin say həddi 25 min ədəd müəyyən ediləcək. Həmin taksilərin sahibləri sərnişindaşıma fəaliyyəti üçün icazə (lisenziya) əldə etməlidir. İcazələr Rəqabət Məcəlləsinə, "Lisenziyalar və icazələr haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq növbəlilik nəzərə alınmaqla veriləcək. NK bu məsələlərlə bağlı tənzimlənməni Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (RİNN) tapşırıb. Qərar 2025-ci il noyabrın 1-dən qüvvəyə minir.

Hökumətin qərarı ictimaiyyətdə və sosial mediada müxtəlif müxtəlif suallar doğurduğundan və fərqli müzakirələrə səbəb olduğundan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) mövzuya aydınlıq gətirib. AYNA bəyan edib ki, "Avtomobil nəqliyyatı haqqında" qanunla, taksi minik avtomobilləri ilə sərnişindaşıma fəaliyyətə göstərmək istəyən hüquqi və fiziki şəxslər daşımaya icazə üçün buraxılış vəsiqəsi, daşımaları yerinə yetirmək üçün taksi nəqliyyat vasitələrinə isə buraxılış vəsiqəsinin əlavəsi hesab olunan buraxılış kartı almalıdır. Yeni mexanizm paytaxtda avtomobil nəqliyyatı xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması, daşınmalarda fərqli nəqliyyat növləri üzrə sərnişin axınlarının paylanmasının optimallaşdırılması məqsədi daşıyır.

### Daşıyıcı şirkətlər arasında davamlı rəqabət yaranacaq

Əslində, nəqliyyat sektoru ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi, taksi fəaliyyətinə dövlət nəzarətinin artırılmasına xeyli müddətdir ki, ciddi ehtiyac duyulurdu. Məhz bu səbəbdən mövcud problemlərin hərtərəfli araşdırılaraq hökumət tərəfindən zəruri addımların atılması aktual çağırış kimi dəyərləndirilə bilər. Nəqliyyat növləri arasında balanslaşdırılmış daşıma siyasətinin təmin edilməsi üçün kvota tətbiqi təcrübəsi dünya ölkələrində də geniş istifadə olunur. Çünki bu tədbirlər taksi xidməti sektorunda daşıyıcı aqreqatorlar arasında rəqabətin artmasını və həmin şirkətlərin daha müasir və təhlükəsizlik baxımından, eləcə də ətraf mühitə zərərləri azaldan nəqliyyat vasitələrinin dövriyyəyə cəlb edilməsini motivasiya edir. Nəticədə, kvota tətbiqi sayəsində taksi bazarında qalmaq və öz dayanıqlı fəaliyyətini saxlamaq üçün şirkətlər və fiziki şəxslər arasında taksi parkını daim yeniləmək məsuliyyəti artır. Şirkətlər çalışır ki, hər il taksi parkını daha da müasirləşdirsin ki, kvotadan kənarda qalmasın.

Bu reallıqları nəzərə aldıqda Azərbaycanın taksi parkındakı mənzərə xidmətin keyfiyyətində çoxsaylı nöqsanların qalmasından xəbər verir. Statistikaya əsasən ölkəmizdə taksi fəaliyyəti ilə məşğul olan avtomobillərin 50 faizindən çoxunun yaşı 15-dən çoxdur. Bu, ölkəmiz üçün istər ekoloji tələblərin pozulması, istərsə də təhlükəsizlik baxımından qəbulolunmaz risklərdir. Doğrudur, son illərdə taksi parkının müasirləşdirilməsi ilə bağlı aparılan tədbirlər nəticəsində qısa zaman kəsiyində mühüm nailiyyət əldə olunub və hazırda parkın 67 faizini istismar müddəti 8 il təşkil edir. Ancaq problemlər yenə də qalır və ciddi addımların atılması olduqca zəruridir.




### Ekoloji baxımdan təmiz nəqliyyat vasitələrinin sayı artacaq

Hazırda taksi parkının yeni və ekoloji baxımdan təmiz nəqliyyat vasitələri ilə əvəz olunması əsas şərtlərdən biridir. Köhnə avtomobillərin isə xidmətdən kənarlaşdırılması və taksi fəaliyyətinin ləğvi günün tələbidir. Bu amillər sərnişinlərin təhlükəsizliyi üçün də əsas faktorlardan biridir, çünki istismar müddəti bitən avtomobillərin yaratdığı qəza hallarının sayı daha çoxdur. Bu baxımdan taksi fəaliyyətində xidmət parkının yenilənməsi həm keyfiyyətə səbəb olur, həm də dövlətin müəyyən etdiyi qaydaların möhkəmləndirilməsini təmin edir.

Yeri gəlmişkən, hazırda taksi daşımalarına Bakı şəhəri üzrə verilmiş buraxılış vəsiqələrinin sayı 19 min, nəqliyyat vasitələrinə verilmiş buraxılış kartlarının sayı isə 34 mindən çoxdur. Həmin avtomobillərin təxminən 55 faizi və yaxud 18,8 min ədədi son 5 ildə istehsal olunan nəqliyyat vasitələridir. Ağ və qırmızı rəngli nəqliyyat vasitələrinin sayı isə taksi parkının 79 faizini təşkil edir. Yəni sərnişin nəqliyyatı sahəsində aparılan islahatlar sayəsində taksi parkında fərqli nəqliyyat vasitələrinin, yəni müasir tələblərə cavab verən taksilərin sayının artmasına səbəb olur.

Qeyd edilən məsələləri nəzərə aldıqda, taksi sektorunda tətbiq olunacaq kvota mexanizmi nəqliyyat növləri arasında balanslaşdırılmış siyasətin həyata keçirilməsinə şərait yaratmaqla yanaşı, keyfiyyətli taksi xidmətinin təmin olunmasına öz töhfəsini verəcək. Kvotanın tətbiqi verilmiş icazələrin kvotadan artıq hissəsinin ləğvini nəzərdə tutmur və icazə almış bütün daşıyıcılar onlara məxsus nəqliyyat vasitələri ilə daşımaları həyata keçirməyə davam edəcək.

### Taksi sürücülərinin əmək hüquqlarının qorunması üçün fürsət

Kvotaya uyğunlaşma isə "Lisenziyalar və icazələr haqqında" qanunun müəyyən etdiyi tələblərə uyğun həyata keçiriləcək. Yeni icazələrin verilməsi növbəlilik əsasında təmin ediləcək. Lisenziyalaşdırma həm də taksi sürücülərinin özlərinin əmək hüquqlarının qorunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Statistikaya əsasən, taksi şirkətlərinin 90 faizindən çoxunda işçilərlə əmək müqaviləsi bağlanılmır. Çünki müqavilə bağlansa, işçiləri 8 saatdan çox işlədə bilməzlər. Əmək Məcəlləsinin 89-cu maddəsinə əsasən, ölkəmizdə iş saatları tam və natamam olmaqla 8-10 saat müddətə müəyyən edilib. Gündəlik normal iş vaxtının müddəti 8 saatdan, belə iş vaxtında uyğun olan həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq müəyyən edilə bilməz. Taksi şirkətləri lisenziyalaşdırma və "Avtomobil nəqliyyat haqqında" qanunun tələblərini yerinə yetirmədiyindən sürücülərlə əmək müqaviləsinin bağlanmasından yayınır.

Göründüyü kimi, dəyişikliklər yüz minlərlə sərnişinin mənafeyinə və təhlükəsizliyinə xidmət etməklə bərabər, taksi xidməti sektorunda azad rəqabət mühitinin tam təmin edilməsi, bu sektorda intizamsızlığın aradan qaldırılması, dağınıq və pərakəndəliyin nizamlanması, sərnişinlərə xidmət mədəniyyətinin yüksəldilməsi, həmin taksi şirkətlərinin sürücülərinin əmək və sosial hüquqlarının qorunması məqsədi daşıyır.

Beləliklə, NK-nin müvafiq qərarı taksi fəaliyyəti sektorunda nizam-intizamının, qanunçuluğun təmin edilməsində mühüm dönüş yaratmaqla, həm vətəndaşların rahatlığı və təhlükəsizliyi, keyfiyyətli xidmətlərə təmin edilmələrinə şərait yaradacaq, həm də taksi sürücülərinin normal əmək şərtləri əsasında çalışmalarına səbəb olacaq.

***E.CƏFƏRLİ***



# Statistika sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyəti və inkişaf perspektivləri

Müasir dövrdə sosial-iqtisadi proseslərin dinamik inkişafı və qloballaşma şəraitində etibarlı statistik məlumatlara tələbat daha da artmaqdadır. Qərar qəbuletmənin, iqtisadi planlaşdırmanın və ictimai siyasətin əsas dayaqlarından biri kimi statistika sahəsində beynəlxalq əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Statistik əməkdaşlıq ölkələr arasında məlumatların müqayisəliliyini təmin etməklə yanaşı, milli statistika sistemlərinin institusional və metodoloji cəhətdən güclənməsinə də şərait yaradır.

Statistika sahəsində beynəlxalq əməkdaşlıq çoxşaxəli xarakter daşıyır və müxtəlif formalarda: məlumatların müqayisəliliyini təmin etmək məqsədilə beynəlxalq standartların və təsnifatların ölkə qanunvericiliyinə uyğun olaraq tətbiqi, kadr potensialının daha da gücləndirilməsi üçün regional layihələrdə, təlim və təcrübə mübadiləsi proqramlarında, əlaqələndirici və məsləhət şuralarının, ekspert və işçi qruplarının görüşlərində iştirak, məlumat mübadiləsi vasitəsilə statistik məlumatların əlçatanlığının artırılması və s. formalarda həyata keçirilir. Bu istiqamətlər sayəsində beynəlxalq əməkdaşlıq yalnız məlumat istehsalını deyil, həm də məlumatların keyfiyyətinə etimadı möhkəmləndirir. Eyni zamanda, yeni texnologiyaların tətbiqi, rəqəmsal transformasiya, süni intellekt, məlumat elmi, eləcə də digər sahələrdə də təcrübə paylaşımı vacibdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi beynəlxalq statistika ictimaiyyətinin fəal üzvüdür. Komitə BMT və onun regional iqtisadi komissiyaları, Avropa İttifaqının Statistika Bürosu, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Əmək Təşkilatı, Dünya Bankı, Asiya İnkişaf Bankı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, UNESCO, UNICEF, UNIDO, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Nəqliyyat Forumu, Beynəlxalq Miqrasiya Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Yol Federasiyası, TRASECA, Beynəlxalq Energetika Agentliyi, MDB Dövlətlərarası Statistika Komitəsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi beynəlxalq təşkilatlarla və dünyanın müxtəlif ölkələrinin statistika qurumları ilə sıx əməkdaşlıq edir və məlumat mübadiləsi aparır. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanın milli statistika sistemi beynəlxalq metodoloji standartlara uyğunlaşdırılmışdır. Dövlət Statistika Komitəsi həmçinin bir çox beynəlxalq layihələrdə iştirak etməklə rəqəmsal statistika infrastrukturunu modernləşdirmiş, statistikanın bir çox sahələrində innovasiyalar üzrə yeni göstəricilərin hazırlanmasında beynəlxalq təcrübəni tətbiq etmiş, məlumatların müasir yayım sisteminə malik olmuşdur.

Azərbaycanda rəsmi statistikanın formalaşması və müasir tələblərə uyğun inkişafı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə sıx bağlıdır. Heydər Əliyevin rəhbərliyi dövründə ölkədə statistika sisteminin institusional əsasları möhkəmləndirilmiş, yeni idarəetmə və hesabatlılıq mexanizmləri yaradılmış, kadr hazırlığına və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət ayrılmışdır. Ümummilli Liderin müəyyən etdiyi bu strateji istiqamət sonrakı illərdə Azərbaycan statistikasının dayanıqlı inkişafının təməlini təşkil etmişdir.

Məlum olduğu kimi, BMT Baş Assambleyası tərəfindən 2015-ci il 3 iyun tarixində qəbul edilmiş 69/282 saylı Qətnaməyə əsasən Ümumdünya Statistika Günü hər 5 ildən bir 20 oktyabr tarixində qeyd olunur. BMT-nin Statistika Komissiyasının 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş 56-cı sessiyasında Ümumdünya Statistika Günü ilə bağlı BMT Baş katibinin məruzəsi təqdim olunaraq bu əlamətdar günün beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır.

Ümumdünya Statistika Günü kimi əlamətdar tədbir ölkəmizdə də qeyd olunur və bu, Azərbaycan statistikasının qlobal ailənin bir parçası kimi uğurlarını nümayiş etdirmək üçün gözəl fürsətdir. Ölkəmizdə bu gün müxtəlif səviyyələrdə qeyd olunur və bu tədbirlər çərçivəsində Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda keçirilmiş 3-cü Beynəlxalq Statistika Forumu milli statistika sistemlərinin inkişafı, rəsmi statistika sahəsində yeni hədəflərin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət daşımış, eləcə də qlobal statistik təşəbbüslərin, beynəlxalq və qabaqcıl təcrübələrin bölüşülməsində səmərəli platforma kimi beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə öz töhfəsini vermişdir. Tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına ünvanlanmış müraciətini səsləndirmiş, rəsmi statistikanın əhəmiyyəti, müvafiq qərarların qəbulunda rolu və bu sahədə dövlət proqramları barədə iştirakçılara məlumat verərək Ümumdünya Statistika Günü ərəfəsində keçirilən forumun dövlətimizin beynəlxalq imicinin möhkəmlənməsi, statistika sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, habelə Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir.

Beynəlxalq təcrübədən bəhrələnməklə milli statistika potensialının gücləndirilməsi, qabaqcıl milli təcrübə əsasında beynəlxalq metodoloji bazanın təkmilləşdirilməsinə töhfə verilməsi, müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə statistik innovasiyaların tətbiqinə dair təcrübə mübadiləsi Dövlət Statistika Komitəsinin əsas prioritetlərindən biridir və bu məqsədlə Dövlət Statistika Komitəsi bir çox xarici ölkənin aidiyyəti qurumları ilə əməkdaşlıq edir. İndiyədək həyata keçirilmiş 6 Dövlət Proqramı çərçivəsində milli statistika sisteminin müasirləşdirilməsi, məlumat infrastrukturunun yenilənməsi, kadr potensialının gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl layihələr həyata keçirilmişdir. Tvinninq, texniki yardım, STEP, MICS, eləcə də Koreya Statistika Komitəsi, Dünya Bankı və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirilmiş uğurlu layihələr milli statistika sisteminin təkmilləşməsinə öz töhfəsini vermişdir.

Statistika sahəsində beynəlxalq ekspert və işçi qruplarının fəaliyyətində Komitə mütəxəssislərinin fəal iştirakı təmin olunur, Azərbaycanın statistika sahəsində qabaqcıl təcrübəsinin yayılması, milli statistika sisteminin inkişaf etdirilməsi sahəsində müvafiq addımlar atılır. Artıq Dövlət Statistika Komitəsinin mütəxəssisləri ekspert qismində müxtəlif layihələr çərçivəsində digər ölkələrin statistika qurumlarının əməkdaşları üçün statistikanın bir çox sahələri üzrə təlimlər təşkil edir ki, beynəlxalq nüfuzun daha da artırılmasına gətirib çıxarır.

Hazırda Dövlət Statistika Komitəsi ilə 17 ölkənin statistika qurumu, eləcə də Avrostat və SESRIC arasında statistika sahəsində əməkdaşlığa dair sazişlər, anlaşma memorandumları, birgə niyyət bəyannamələri və əməkdaşlıq proqramları mövcuddur ki, bunlardan 7-si (Koreya, Niderland, Finlandiya, Vyetnam, Tacikistan, Türkiyənin milli statistika qurumları və İslam Əməkdaşlıq Təşkilatının İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRIC)) təkcə son 10 il ərzində imzalanmışdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğızıstan, Özbəkistan, Belarus, Qazaxıstan və Serbiyanın statistika qurumları arasında statistika sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumlarının imzalanması üçün müvafiq işlər davam etdirilir.

Statistikanın əhəmiyyəti təkcə dövlət idarəçiliyi üçün deyil, eyni zamanda vətəndaş cəmiyyəti, biznes sektoru, media və tədqiqat qurumları üçün də böyükdür. Etibarlı və keyfiyyətli statistika iqtisadi və sosial qərarların düzgün verilməsini təmin edir və davamlı inkişafa təkan verir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi milli statistikanın inkişafında beynəlxalq əməkdaşlığın rolunu yüksək qiymətləndirir və gələcəkdə də yeni tərəfdaşlıq memorandumlarının imzalanması, qabaqcıl metodoloji təcrübələrin tətbiqi və məlumat keyfiyyətinin yüksəldilməsi istiqamətində ardıcıl fəaliyyətini davam etdirəcəkdir.

Çünki etibarlı statistika - davamlı inkişafa aparan ən doğru və möhkəm yoldur!

***Fərhad Əliyev,***
***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi***
***Beynəlxalq əlaqələr şöbəsinin müdiri***

# Daha iki münaqişə həllini gözləyir...

## Trampın səyləri nəticə verəcəkmi?

ABŞ Prezidenti Donald Tramp növbəti diplomatik uğura imza atmağa hazırlaşır. Qlobal sülh təşəbbüskarı kimi çıxış edən Ağ Evin rəhbəri Qəzzada münaqişəni bitirdikdən sonra diqqətini Tailand ilə Kamboca arasında ərazi mübahisələrin və ikitərəfli münasibətlərdəki problemlərin həllinə, o cümlədən Rusiya-Ukrayna münaqişəsinin nizamlanmasına yönəldib - demək olar ki, o, uğurlarının ardı-ardınca bu istiqamətdə səylərini daha da artırıb. Xüsusilə qeyd etmək lazımdır ki, İsrail ilə Suriya, İsrail ilə Livan, Pakistan ilə Hindistan, Azərbaycan ilə Ermənistan və İsrail ilə Fələstinin ikinci böyük hərbi-siyasi rəhbərliyi - HƏMAS arasında sülh və sabitliyin bərqərar olunmasına yönələn sazişlərin imzalanmasına nail olan ABŞ-ın dövlət rəhbəri dünyanın digər bölgələrində də hələ də mövcud olan münaqişələrin həlli, ən əsası da qlobal təhlükəsizliyin təminatı istiqamətində aktiv rol oynamaqda qərarlıdır. Belə ki, Donald Tramp iki gün bundan öncə Misirin Şarm əl-Şeyx şəhərindən Vaşinqtona qayıdarkən təyyarəsində jurnalistlərə açıqlamasında oktyabrın 17-də Ukrayna lideri Volodimir Zelenskini Ağ Evdə qəbul etmək niyyətini təsdiqləyib. Böyük ehtimalla, bu görüş baş tutacaq. Zelenski ilə görüşdən sonra Tramp Tailand və Kamboca arasında sülh sazişinin imzalanmasına kömək etmək üçün oktyabrın 26-da Malayziyaya səfər edəcək. Saziş Malaziyanın paytaxtı Kuala-Lumpurda oktyabrın 26-dan 28-dək keçiriləcək Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası liderlərinin görüşü zamanı imzalanacaq.

### Tailand ilə Kamboca arasında qarşıdurma necə başlayıb?

Qeyd edək ki, bu ilin iyul ayının sonlarında Tailand və Kamboca arasında son on ilin ən gərgin hərbi toqquşmaları baş vermişdi. Toqquşma zamanı hər iki tərəfin bir-birinin sərhəd ərazilərini ağır artilleriya ilə atəşə tutması nəticəsində ən azı 16 nəfər həlak olmuşdu, on minlərlə insan isə evlərini tərk etmək məcburiyyətində qalmışdı. Gərginlik hər iki ölkənin sərhədində yerləşən Ta Moan Thom məbədi və bu məbədin ətrafında olan ərazilər üzərində illərlə davam edən mübahisədən qaynaqlanır. Münaqişənin kökləri 1907-ci ilə, Fransa tərəfindən çəkilmiş sərhəd xəritəsinə dayanır. Həmin vaxt Kamboca Fransa müstəmləkəsi idi və sərhədin təbii suayırıcı xəttlə müəyyən olunması razılaşdırılmışdı. Lakin Tailand sonradan bu xəritənin legitimliyini qəbul etmədi və 817 kilometrlik sərhədin bir neçə hissəsində mübahisəli ərazilər formalaşdı.1962-ci ildə Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) Ta Moan Thom məbədinin Kambocaya məxsus olduğunu təsdiqlədi. Lakin bu qərar məbədin ətrafındakı torpaqların statusunu aydınlaşdırmırdı. 2008-ci ildə Kamboca məbədi UNESCO-nun Dünya İrsi Siyahısına salmağa çalışdıqda gərginlik yenidən alovlandı. Həmin dövrdən bəri tərəflər arasında dəfələrlə toqquşmalar baş verib. 2024-cü ilin sonunda və 2025-ci ilin əvvəllərində baş verən bəzi hadisələr vəziyyəti daha da gərginləşdirdi. Mayın 28-də sərhəddə hər iki tərəfin bir-birinin mövqelərinə atəşə tutması ilə başlayan gərginlik iyul ayında sərhəd boyunca şiddətli toqquşmalara çevrildi. Lakin Malayziyanın Baş naziri Ənvər İbrahimin vasitəçiliyi və Prezident Donald Trampın təzyiqləri nəticəsində Tailand və Kamboca atəşi dayandırdı və aralarındakı problemi həll etmək üçün danışıqlar masası arxasına oturmağa razı oldular.



### Münaqişənin dayanması sual altındadır

Dörd ay davam edən danışıqlarda, nəhayət Tailand və Kamboca hökuməti iki ölkənin sərhədində mübahisəli ərazilərin həllinə dair bəzi məsələlərdə razılığa gəldilər.



Razılaşmaya görə, hər iki tərəf sərhəd ərazidə öz mövqelərində heç bir ağır silah yerləşdirməyəcək, iki tərəfin əsgərləri əraziləri minalardan təmizlənməyə cəlb olunacaq, mübahisələri dialoq çərçivəsində həll edəcək və hər iki ölkə transmilli cinayətlərə qarşı birgə mübarizə aparacaqlar. Bu razılaşma fonunda Tailand və Kambocanın dövlət rəhbərlərinin oktyabrın 26-28 - də Kuala-Lumpurda baş tutacaq Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyasının konfransında sülh sazişi imzalayacağı gözlənilir. Təbii ki, belə bir razılaşmanın əldə olunmasında Trampın əhəmiyyətli rolu danılmazdır. Məhz Trampın dəstəyi ilə Tailand və Kamboca arasında dörd ay ərzində danışıqlar baş tutub. Məsələ ilə bağlı Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Trampın Tailand-Kamboca münaqişəsinin nizamlanması prosesində də təşəbbüsü nəticə göstərib. "Uzun müddətdir ki, Tailand və Kamboca arasında münaqişə davam edir. İndiyə qədər bu münaqişənin həlli istiqamətində qlobal səviyyədə heç bir ciddi addım atılmayıb. Yalnız ABŞ Prezidenti Donald Tramp münaqişənin nizamlanmasına mühüm töhfə verib. Trampın təşəbbüsü ilə Kuala-Lumpurda iki tərəf arasında sülh və atəşkəs sazişi imzalanacaq. Lakin əsas məsələ burasındadır ki, Tailand və Kamboca arasındakı münaqişənin yaxın zamanda tam sona çatması inandırıcı görünmür. Həm Tailand, həm də Kambocanın bu münaqişədə öz maraqları var və hər iki tərəfin öz maraqlarını bir kənara qoyub ortaq maraqlardan çıxış etməsi sual altındadır. Atəşkəsin uzudmüddətli və ya daimi olacağı qeyri-müəyyəndir. İlkin dövrlərdə atəşkəsə riayət oluna bilər, amma sonrakı dövrlərdə nə baş verəcək, bunu yalnız gələcək göstərəcək. Bu məsələdə xüsusi bir məqamı da diqqətdən qaçırmaq olmaz - üçüncü qüvvələr də bu atəşkəsi pozmağa cəhd edə bilər".



### Növbəti hədəf Rusiya-Ukrayna müharibəsi - Tramp təzyiqlərə əl atacaq?

"Tramp Ağ Evə qayıtdıqdan bəri Rusiya ilə Ukrayna arasında müharibəni dayandırmaq və atəşkəsi təmin etmək üçün bir çox addımlar atıb. Amma onun addımları heç bir ciddi nəticə verməyib. Tramp Zelenski ilə görüşlər keçirə bilər, amma əsas problem budur ki, həm Ukraynanı, həm də Rusiyanı danışıqlar masası arxasına otuzdurmaq o qədər də asan məsələ deyil. Nə Zelenski, nə də Putin bir masa arxasına oturmaq istəmir. Tramp bu məsələdə hər iki ölkənin liderini razı sala bilməyib. Sözsüz ki, əgər Tramp Ukraynada müharibəni dayandırmaq istəyirsə, Rusiyaya təzyiq etməlidir. Lakin Tramp buna tələsmir və hələ ki, vəziyyətin gedişatını izləyib səbrlə davranmağa və Kremlin hərəkətlərinə dözümlü münasibət sərgiləməyə üstünlük verir. Amma bu, o qədər də çox davam etməyəcək. Vaşinqtonun səbri tükənəcək və Ukraynaya hərbi dəstəyi daha da artıracaq" - deyə S.Hümbətov vurğulayıb.

*Yunis ABDULLAYEV*

# Pakistan - Əfqanıstan sərhədində nə baş verir?

Son vaxtlarda ayrı-ayrı platformalarda keçirilən mühüm beynəlxalq tədbirlərdə, o cümlədən də bugünlərdə Misirin ev sahibliyi ilə baş tutan Yaxın Şərq Sülh Sammitində bəşər sivilizasiyasına ciddi təhlükə yaradan müharibələrin dayandırılmasına çağırışlar edilsə də, hələlik üfüqdə sülh görünmür. Əksinə, siyahıya yeni münaqişə ocaqları əlavə olunur ki, bunlardan biri də Pakistanla Əfqanıstan sərhədində baş verənlərdir.

### Səbəbsiz açılan atəş

İki ölkə arasında budəfəki qarşıdurma oktyabrın 11-də Əfqanıstan yaraqlılarının Pakistanla dövlət sərhədində törətdiyi təxribatla başlayıb. Silahlı toqquşmalar Anqor-Adda, Badjaur, Kurram, Dir, Çitral (Xeyber Paxtunxva əyaləti) və Baram-Çah (Bəlucistan əyaləti) şəhərlərində baş verib. Pakistan tərəfindən cavab zərbələri operativ və kifayət qədər sərt olub. Belə ki, Taliban yaraqlılarının hücumunu dəf etmək üçün təyyarə və pilotsuz uçuş aparatları havaya qaldırılıb. Bundan başqa, artilleriya, tanklar, yüngül və ağır silahlardan istifadə olunmaqla Əfqanıstandakı yaraqlıların bazalarına zərbələr endirilib.

Pakistan Müdafiə Nazirliyi vəziyyətlə bağlı operativ məlumat yayıb. Bildirilib ki, Əfqanıstan tərəfinin hücumu nəticəsində Pakistan ordusunun 23 hərbçisi həlak olub, 29 nəfər isə yaralanıb. Nazirlik qarşı tərəfin itkilərinin sayının 200-dən çox olduğunu açıqlayıb. Bundan başqa, Pakistan Silahlı Qüvvələri Əfqanıstanla sərhəddə ölkəyə hücumlar həyata keçirmək üçün terrorçu qruplara dəstək verən 19 keçid məntəqəsinə nəzarəti ələ keçirib. Həmçinin Əfqanıstan qüvvələrinin atəş dəstəyi ilə sərhədi keçməyə cəhd edən İŞİD və "Pakistan Taliban" yaraqlılarının qrupları da məhv edilib.

Pakistanın Baş naziri Şahbaz Şərif Əfqanıstanın sərhəd bölgələrindəki təxribatçı hərəkətlərini qınayıb. Baş nazir vurğulayıb ki, hər bir təxribata güclü və təsirli şəkildə cavab veriləcək.

Şahbaz Şərif əlavə edib ki, terror təşkilatları Əfqanıstanda olan bəzi elementlər tərəfindən dəstəklənir. Rəsmi İslamabad Əfqanıstan hökumətindən öz torpağının Pakistan əleyhinə istifadə olunmasına imkan verməməsini gözləyir.

Eyni zamanda, Pakistanın Xarici İşlər Nazirliyi də sərhəd bölgəsində baş verənlərlə bağlı narahatlığını ifadə edib. Bu barədə ölkə Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar "X" sosial şəbəkəsində paylaşım edib.

O bildirib ki, Taliban hökumətinin sərhəd boyunca səbəbsiz atəş açması və basqınları ciddi təxribat kimi qiymətləndirilir. Məhəmməd İshaq Darın sözlərinə görə, Pakistanın müdafiə xarakterli cavabı sülhpərvər əfqan mülki əhalisini hədəf almır. Qarşı tərəfdən fərqli olaraq, biz mülki itkilərin qarşısını almaq üçün son dərəcə ehtiyatlı davranırıq", - deyə XİN rəsmisi vurğulayıb.

### Sərhədlərin qeyri-müəyyənliyindən qaynaqlanan münaqişə

Pakistanla Əfqanıstan arasınsa sərhəd münaqişələri bir növ xroniki hal alıb. Belə münaqişələr vaxtaşırı təkrarlanır və hücumlar zamanı çoxlu sayda hərbçi döyüşlərdə həyatını itirir.



Gərginliyin səbəbi isə sərhədlərin qeyri-müəyyənliyi ilə bağlıdır. İki ölkə arasında 2670 km uzunluğundakı sərhədi 1893-cü ildə ingilis müstəmləkəçiləri müəyyənləşdiriblər. Lakin Əfqanıstan "Durand xətti" adlanan sərhədi rəsmi olaraq tanımır. Əfqan yaraqlıları vaxtaşırı "Durand xətti"ni keçməyə çalışırlar. Təbii ki, Pakistan buna seyirçi qalmır və yaraqlıları cavab zərbələri ilə məhv edir. Taliban hakimiyyəti isə bunu Əfqanıstan ərazisinə hücum kimi dəyərləndirir.

Dünya praktikasından məlumdur ki, ayrı-ayrı ölkələr arasında sərhədlərin delimitasiya və demarkasiya olunması prosesi uzun illər ərzində davam edir. Lakin bu, heç də bütün hallarda qanlı toqquşmalara gətirib çıxarmır. Proseslər hökumətlər və müvafiq ikitərəfli komissiyalar vasitəsilə idarə olunur. Bundan ötrü ilk növbədə tərəflərin xoş niyyəti olmalıdır.

*Mübariz ABDULLAYEV*

### Fransada hökumət pensiya islahatını dondurdu

Fransada siyasi böhran fonunda hökumət parlamentdə etimadsızlıq sınağından yayınmaq üçün mühüm kompromisə gedib. Baş nazir Sebastyan Lökörnü parlamentdəki siyasət bəyannaməsində sosialistlərin tələblərinə cavab olaraq elan edib ki, 2023-cü ilin pensiya islahatı prezident seçkilərinə qədər dayandırılacaq.



Lökörnünün sözlərinə görə, pensiya yaşı 62 il 9 ay səviyyəsində saxlanılacaq, heç bir artım olmayacaq, sığorta müddəti isə 2028-ci ilin yanvarına qədər 170 rüb olaraq qalacaq.

AZƏRTAC xəbər verir ki, islahatın dondurulması hökumətə 2026-cı ildə 400 milyon avro, 2027-ci ildə isə 1,8 milyard avro əlavə maliyyə yükü gətirəcək. Qərar Sosialist Partiyası (PS) tərəfindən "qələbə" kimi qiymətləndirilib və onlar debatlara hazır olduqlarını bəyan ediblər.

Bununla yanaşı, Milli Birlik (RN) və "Əyilməz Fransa" (LFI) partiyalarının verdiyi etimadsızlıq təklifləri artıq parlamentin gündəmindədir və yaxın günlərdə müzakirəyə çıxarılacaq.

Pensiya islahatının dondurulması hökumətin sosialistlərlə dialoqa açıq olduğunu göstərən "yumşaq siqnal" hesab olunur. Bu addımın parlamentdə büdcə müzakirələrini daha az gərgin atmosferdə keçirməyə imkan verəcəyi ümid edilir.

Sağçı partiyalar qərarı sərt tənqid edərək hökumətin sol qüvvələrin diktəsi altında hərəkət etdiyini bildiriblər. Makronun tərəfdarları isə bu addımı böyük kompromis kimi qiymətləndirirlər, çünki indiki siyasi şəraitdə hökumətin başqa alternativi demək olar ki, yoxdur.

Ekspertlər Emmanuel Makronun geri çəkilməsini "siyasi labirintdə çıxış yolu" kimi dəyərləndirsələr də, qərarın həm hakimiyyətin zəifləməsi, həm də etibarsızlıq riskinin artması ilə nəticələnə biləcəyini qeyd edirlər. Gözlənilir ki, hökumət, parlament və partiya daxilində formalaşacaq yeni siyasi balanslar yaxın aylarda Fransa siyasi mənzərəsini ciddi şəkildə dəyişəcək.

### Ursula Fon der Lyayen: Bosniya və Herseqovina Aİ-yə üzvlüyün astanasındadır

Bosniya və Herseqovina Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı uzun yol qət edib və Aİ-yə qoşulma ərəfəsində dayanıb.



AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen Qərbi Balkan ölkələrinə səfəri çərçivəsində Sarayevoda Bosniya və Herseqovina Nazirlər Şurasının sədri Boryana Kristo ilə birgə mətbuat konfransında deyib.

Ursula Fon der Lyayen Avrokomissiyanın Bosniya və Herseqovinadakı bütün icmaların dostu olduğunu və bu icmaların gələcəyini Aİ-də gördüyünü bildirib. O, Bosniya və Herseqovinanın Aİ-yə üzvlük üçün hazırladığı islahatları qiymətləndirəcəklərini deyib. Qeyd edib ki, Aİnin Bosniya və Herseqovina üzrə İnkişaf Planına 1 milyard avro maliyyə vəsaiti daxildir.

Avrokomissiyanın prezidenti səfər çərçivəsində Bosniya və Herseqovinanın Rəyasət Heyəti sədri və üzvləri ilə də görüşlər keçirib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Ümid verən əllər...

## Anestezioloqlar tibb dünyasının böyük qəhrəmanlarıdır

*Yeganə BAYRAMOVA*

Onlar olmasaydı, bu gün uğurlu əməliyyatlardan danışmaq mümkün olmazdı. Anestezioloqlar sadəcə “narkoz verən” həkimlər deyil. Onlar insanın həyatı ilə saniyə-saniyə işləyən, ürək döyüntüsünü, tənəffüsünü, qan təzyiqini izləyən və xəstənin vəziyyətindəki dəyişiklik zamanı prosesə dərhal reaksiya verən peşəkarlardır. Cərrah bıçağını işlətmədən əvvəl artıq anestezioloq-həkim insan orqanizmini əməliyyata hazır vəziyyətə gətirmiş olur. Bu isə təkcə dərman vasitəsi yox, həm də dəqiq hesablamalar, klinik təcrübə və böyük məsuliyyət tələb edir.

Bəzən əməliyyat zamanı ani bir dəyişiklik - təzyiqin enməsi, nəbzin zəifləməsi, nəfəsin dayanması həyatla ölüm arasındakı sərhədi cəmi bir neçə saniyəyə endirə bilər. Həmin anda isə anestezioloq düşünmədən, tərəddüdsüz, sürətli və düzgün qərar verməlidir. Onların çəldliyi və təcrübəsi sayəsində xəstə həyata qayıdır.

Hər il oktyabrın 16-sı bir çox ölkələrdə Ümumdünya Anestezioloqlar Günü kimi qeyd olunur. Bu gün ənənəvi olaraq anestezioloq-reanimatoloqlar və təbabətin həmin sahəsinin bütün mütəxəssisləri tərəfindən peşə bayramı kimi qəbul edilir.

Təbabətin bu sahəsinin tarixi 19-cu əsrin ortalarından başlayıb. Belə ki, 1846-cı il oktyabrın 16-da amerikalı diş həkimi Tomas Morton efir anesteziyası altında əməliyyat keçirib. O, anesteziyaedici olaraq dietil efir inhalyasiyasından istifadə edərək uğurlu əməliyyat aparıb. Buna görə də həmin tarix Ümumdünya Anesteziya Günü kimi qeyd olunur.

Anesteziya sinir həssaslığının itirilməsidir. Süni anesteziya cərrahi əməliyyatlar zamanı, diş müalicəsində, zədələnmələrdə, eləcə də təbabətin digər sahələrində ağrıları aradan qaldırmaq üçün istifadə olunur.

Təbii ki, ağrıkəsicilər dünyada qədim zamanlardan mövcuddur. Məsələn, bir çox hindu tayfaları həssaslığı azaltmaq üçün müxtəlif bitkilərin şirəsindən istifadə edirdilər. “Anesteziya” terminini ilk dəfə qədim yunan həkimi və filosofu Dioskorid istifadə edib. O, eramızdan əvvəl I əsrdə imperator Neronun vaxtında Roma ordusu ilə birgə səyahət zamanı mandraqora bitkisindən yuxugətirən və sakitləşdirici dərmanlar hazırlayıb. Onun köməyi ilə yaralanmış döyüşçüləri sağaltmaq üçün onların ağrılı nahiyəsinə müdaxilə etməyə imkan verən cərrahi əməliyyatlar aparılıb.

Cəmiyyətin inkişafı ilə yanaşı, tibb sahəsində, o cümlədən anesteziologiya sahəsində biliklər təkmilləşdi. Bu, son nəticədə onun ayrı bir tibb sahəsinə çevrilməsinə səbəb oldu. Hazırda anesteziologiya tək cərrahiyyəni deyil, həm də psixiatriya, narkologiya və digər sahələri müşayiət edir. Bundan əlavə, müasir tibb ümumi, yerli və onurğa anesteziyasını fərqləndirir.

Bugünkü tibbin səviyyəsində, anesteziya yalnız “ağrısızlaşdırma” vasitəsi deyil, insan orqanizmi funksiyalarının əməliyyat zamanı sabit və təhlükəsiz saxlanılması prosesidir. Bu, ölümlə həyat arasında nazik bir xəttin üstündə dayanan həkimin saniyələrlə yarışması deməkdir. Bəzən anestezioloqların əməyini unuduruq. Halbuki onlar insan həyatını dəqiqlik və sükutla qoruyan qəhrəmanlardır.

# Aclıqla savaşmaq...

## Qida hamı üçündür!

Keyfiyyətli və təhlükəsiz qida ilə təmin olunmaq hər bir insanın fundamental hüququdur. Bu hüququn təmin olunması isə sadəcə yaşamaq üçün deyil, layiqli və sağlam bir həyat sürmək, cəmiyyətin inkişafında aktiv iştirak etmək üçün də vacibdir. Lakin bu gün dünyada milyonlarla insan bu hüquqdan məhrumdur.

Bildiyimiz kimi, aclıq insan potensialını məhdudlaşdırır, nəticədə dayanıqlı inkişafın digər məqsədlərinə nail olmasını əngəlləyir. Təəssüf ki, bu gün bir çox ölkədə aclıqdan əziyyət çəkən çoxsaylı insan var. Bu hala səbəb olan əsas amillərdən biri isə qida çatışmazlığıdır. Qida çatışmazlığı məhsul yığımında səmərəsiz üsullar və ərzaq itkiləri kimi müxtəlif amillərdən asılıdır. Müharibələr də qida məhsullarına çıxışa və əkin sahələrinə mənfi təsir göstərir.

Son illər bütün dünya bir çox sayda insanın təsirlənməsi ilə nəticələnən qlobal böhranlarla üzləşdi. Koronavirus pandemiyası, qida istehsalına təsir edən ekstremal hava hadisələri hər bir ölkəyə təsir etdi. Bu müddət ərzində təhlükəsiz, əlverişli və sağlam qidaya çıxışın olmasını təmin etmək üçün tədbirlərin görülməsinin vacibliyi sübut olundu. Ona görə də bu məqsədə çatmaq üçün qlobal cəmiyyət kimi birgə hərəkət etməliyik. Aclıq, qida çatışmazlığı, ərzaq təhlükəsizliyi və qıtlıq riskinin mövcud olduğu ölkələrə dəstək olmalı, onlara ərzaq sistemlərinin inkişaf etdirilməsinə kömək göstərməliyik.

### “Daha yaxşı qida və gələcək üçün əl-ələ”

Oktyabrın 16-sı “Ümumdünya Qida Günü” kimi qeyd olunur. 150-dən çox ölkədə qeyd edilən bu əlamətdar gün 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) təsis olunub. Təşkilat hesab edir ki, dünya sakinləri öz səylərini birləşdirsə, 2030-cu ilə qədər aclığı tamamilə aradan qaldırmaq mümkündür.

Qida günü hər il bir mövzuya həsr olunur. FAO bu il “Ümumdünya Qida Günü”nün şüarını “Daha yaxşı qida və gələcək üçün əl-ələ” olaraq təyin edib.



### Aclığa son qoymaq üçün nə qədər vəsait tələb olunur?

FAO-nun məlumatına görə, qiymətləndirməyə əsasən, 2030-cu ilədək hər ilə orta hesabla 267 milyard ABŞ dolları həcmində əlavə vəsait tələb olunur. İmkansız və yoxsulların normal həyat tərzi və qidaya çıxışını təmin etmək üçün kəndlərə və şəhərlərə, həmçinin sosial müdafiə sahəsinə investisiyalar tələb olunacaq.

### 828 milyon insan aclıqla mübarizə aparır

Qida günü ilə bağlı FAO-nun rəsmi saytında qeyd olunub ki, bu gün dünyada sağlam qidaya sahib olmayan 3,1 milyard insan və aclıqla mübarizə aparan 828 milyon insan var. Məhz 16 oktyabr həmin insanlar üçün bütün bacardıqlarımızı səfərbər etmək günüdür: “Birlikdə çalışıb səylərimizi birləşdirərək dünya miqyasında, eləcə də Avropa və Mərkəzi Asiyada insan tələfatına səbəb olan, uşaqlarımızın sağlam gələcəyini riskə atan aclığa və qida çatışmazlığına son qoymaq üçün gecikmədən addımlar atmalıyıq!.

Daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və hamı üçün daha yaxşı həyat təşəbbüsü qida sistemlərinin səmərəli, dayanıqlı olmasına töhfə verəcək. Aqroərzaq sistemlərimiz ədalətli və güclü gələcək üçün böyük potensiala malikdir. Çünki onlar həyatımızın və iqtisadiyyatımızın bir çox sahələri ilə - kənd təsərrüfatından tutmuş təbii ehtiyatlara, enerjiyə, səhiyyəyə qədər bir-biri ilə bağlıdır.

Cariilki Ümumdünya Qida Gününün bu səyləri sürətləndirərək, heç kimin kənarda qalmadığı, hər kəsin sağlam və faydalı qidaya çıxışı olduğu gələcəyə addım atmasına dəstək olacağına ümid edirik!”.

*Yeganə BAYRAMOVA*



# Plastikdəki kimyəvi maddələr ürək ritminə təsir göstərir

Cincinnati Universiteti Tibb Kollecinin yeni araşdırması göstərib ki, plastik və şəxsi qulluq məhsullarında olan “BPA” adlı kimyəvi maddəyə yüksək məruzqalma ürəyin elektrik fəaliyyətində dəyişikliklər yarada bilər.

AZƏRTAC “MedicalXpress” portalına istinadla xəbər verir ki, tədqiqat 600 nəfər üzərində aparılıb. Sidik analizləri və EKQ nəticələri göstərib ki, bədəndə “BPA” səviyyəsi yüksək olan şəxslərdə ürək ritmində dəyişikliklər müşahidə olunur. “BPA” su butulkaları, yemək qabları, kassa çekləri, gözlük linzaları, uşaq şüşələri və makiyaj məhsullarında tapıla bilər. Mütəxəssislər bu maddələrin gündəlik həyatda geniş yayılmış fenollar qrupuna daxil olduğunu bildirirlər.

Araşdırma müəlliflərindən, kardioloq dr. Cek Rubinşteyn bildirib ki, sağlam insanlarda ciddi təsir gözlənilmir, lakin yaşlı və genetik olaraq risk qrupunda olan şəxslərdə bu maddələr ürəyin fəaliyyətinə mənfi təsir göstərə bilər. Bu, “BPA” kimi kimyəvi maddələrin insan ürəyinin elektrik sistemi ilə əlaqəsini göstərən ilk böyük tədqiqat sayılır. Alimlər növbəti mərhələdə kimlərin daha çox risk altında olduğunu və gündəlik “BPA” məruz qalmasını necə azaltmaq mümkünlüyünü araşdırmağı planlaşdırırlar.

# Narahat ayaqlar sindromu hansı xəstəlik riskini artırır?

Yeni bir tədqiqat narahat ayaqlar sindromu (RLS) ilə Parkinson xəstəliyi arasında əlaqə ola biləcəyini göstərib. Cənubi Koreyada aparılan araşdırmaya görə, RLS diaqnozu qoyulan insanların Parkinson xəstəliyinə tutulma riski sağlam şəxslərlə müqayisədə bir qədər yüksəkdir.

AZƏRTAC “sciencealert.com” saytına istinadla xəbər verir ki, elm adamları 9,919 RLS xəstəsinin sağlamlıq qeydlərini analiz edərək onları eyni yaş və cinsdə olan sağlam şəxslərlə müqayisə ediblər. 15 illik müşahidə dövründə RLS xəstələrinin 1,6 faizi, sağlam qrupun isə bir faizi Parkinson xəstəliyinə tutulub. Tədqiqatçılar qeyd edirlər ki, dopamin agonistləri adlı dərmanlarla müalicə olunan RLS xəstələrində Parkinson riski daha az müşahidə olunub. Bu da göstərir ki, dopaminerjik sistemin fəaliyyəti bu iki xəstəlik arasında əlaqədə mühüm rol oynaya bilər. Mütəxəssislər bildirirlər ki, zəif yuxu keyfiyyəti və dəmir çatışmazlığı kimi amillər də həm RLS, həm də Parkinsona təsir göstərə bilər. Tədqiqatçılar nəticə olaraq RLS-ni Parkinson xəstəliyinin erkən əlaməti deyil, potensial risk faktoru kimi qiymətləndirməyi təklif edirlər.




Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2107
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova